## KARYERA İMKANLARI

Biotibbi texnologiya mühəndisliyi müasir dünyanın ən maraqlı və ən çox ehtiyac duyulan ixtisaslarından biridir. Əminik ki, siz bu ixtisası seçməkdə yanılmayacaqsınız.

Xəzər Universitetini bitirdikdən sonra siz xəstəxanalarda, klinikalarda, tibbi avadanlıqlarla məşğul olan şirkətlərdə, elmi-tədqiqat institutlarında və müxtəlif tibbi mərkəzlərdə uğurla fəaliyyət göstərə biləcəksiniz.



**AZ1096**
**Məhsəti küç. 41**
**Bakı, Azərbaycan**
**(994 12) 421 10 93 — 255 (daxili)**
**(994 12) 421 79 16 — 255 (daxili)**
**biomedical@khazar.org**
**www.khazar.org**

Xəzər Universiteti 1991 Bakı
KHAZAR UNIVERSITY

**Hər gün, hər saat mükəmməlliyə doğru!**

# BİOTİBBİ TEXNOLOGİYA MÜHƏNDİSLİYİ




Biotibbi texnologiya mühəndisləri biotibbi texnologiyaların yaradılması, səmərəliliyinin yüksəldilməsi, tibbi avadanlıqlarla təminatın təşkili, istifadəsi və təkmilləşdirilməsi ilə məşğul olurlar.

## MƏQSƏDİMİZ

Biotibbi texnologiya mühəndisliyi sahəsində hərtərəfli bilik və bacarıqlara malik, bu sahədə əldə edilmiş son yeniliklərə bələd olan, onları tətbiq etməyi bacaran müasir mütəxəssislər hazırlamaqdır.

## LABORATORİYALARIMIZ

Biotibbi texnologiya mühəndisi hazırlamaq üçün universitetimizdə ən müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyalarımız vardır:

- Hüceyrə patologiyası tədqiat mərkəzi
- Biotibbi ölçü
- Ümumi fizika
- Alternativ enerji
- Elektrik dövrələrinin əsasları
- Məntiq dizaynı və s.

Zəngin kitabxana, müasir tələblərə cavab verən laboratoriyaların olması, müxtəlif tipli müsabiqələrin təşkili, elmi-praktiki konfranslarda, olimpiadalarda və seminarlarda mütəmadi iştirak tələbələrin yüksək ixtisaslı mütəxəssislər kimi yetişmə imkanlarını daha da artırır.



## TƏDRİS İMKANLARIMIZ

Tədris proqlarımız dünyanın qabaqcıl ali məktəblərinin proqramlarına tam uyğundur.

Tədris prosesi zamanı siz ən müasir laboratoriyalardan, dərs vəsaitlərindən, tədris metodu və texnologiyalarından geniş şəkildə faydalanacaqsınız.

Siz tanınmış xarici universitetlərlə müxtəlif tələbə mübadiləsi proqramlarında iştirak etmək şansı qazanacaqsınız.

Siz məhz Xəzər Universitetində biotibbi texnologiya mühəndisliyi sahəsində müasir biliklərə sahib olacaqsınız.

Biotibbi texnologiya muhəndisliyi ixtisası üzrə tələbələrə dövlət və müxtəlif özəl klinikalarda təcrübə keçmək üçün geniş şərait yaradılır.



